**Hörmətli Vahid müəllim!**

**Hörmətli Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi!**

Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə sizi səmimi qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırırıq.

Bu yubiley təkcə bir tarix deyil, eyni zamanda ölkəmizdə audit peşəsinin formalaşması, inkişafı və möhkəmlənməsi yolunda keçilən şərəfli bir yolun göstəricisidir. Azərbaycan Respubükası Auditorlar Palatası ötən illər ərzində audit fəaliyyətinin tənzimlənməsi, peşəkar standartların təşviqi və tətbiqi, eləcə də yüksək etik prinsiplərin formalaşdırılması istiqamətində mühüm rol oynamışdır.

Auditorlar Palatasının fəaliyyətləri nəticəsində audit peşəsi ölkəmizdə etibarlı, şəffaf və məsuliyyətli institut kimi tanınmış, maliyyə hesabatlılığının keyfiyyəti yüksəlmiş və dövlət ilə özəl sektorda idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə mühüm töhfələr verilmişdir. Xüsusilə şəffalıq, hesabatlılıq və etik davranış prinsiplərinin təşviqi iqtisadi mühitin güclənməsinə və investor etimadının artırılmasına xidmət etmişdir.

Bugünkü çağırışlar fonunda auditin strateiji rolu daha da artır və onun effektiv tətbiqi ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Əminik ki, Palata gələcəkdə də innovativ yanaşmaları inkişaf etdirəcək, beynəlxalq standartlara inteqrasiyanı genişləndirəcək və audit peşəsinin lider mövqeyini qoruyub saxlayacaqdır.

Bu əlamətdar yubiley münasibətilə bütün kollektivə möhkəm cansağlığı, yeni uğurlar və davamlı inkişaf arzulayırıq.

**Daxili Auditorlar İnstitutunun**
**Azərbaycan Bölməsinin Rəhbəri,**
**Prime Cotton MMC-nin**
**Baş Risk Direktoru** **Fuad Kələşli**